# 2018-ci il ərzində Naxçıvan Muxtar Respublikasının xarici ticarətinin vəziyyəti

Naxçıvan Muxtar Respublikasının 2018-ci il ərzində 58 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi **483431,6** min ABŞ dolları olmuşdur. Bu müddət ərzində **424266,6** min ABŞ dolları dəyərində mal ixrac, **59165,0** min ABŞ dolları dəyərində mal idxal olunmuş, idxal-ixrac əməliyyatları üzrə müsbət saldo **365101,6** min ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin yanvar-dekabr ayları ilə müqayisədə 2018-ci ilin yanvar-dekabr ayları ərzində ixrac əməliyyatlarının həcmi 0,2% (946,6 min ABŞ dolları) artmış, idxal əməliyyatlarının həcmi isə 61% (22596,2 min ABŞ dolları) artmışdır.



İxrac əməliyyatlarında xüsusi çəkisi böyük olan dövlətlərdən Türkiyə Respublikası,İran İslam Respublikası,Gürcüstan Respublikası,Rusiya Federasiyası və digərlərinin adlarını çəkmək olar. Hesabat dövrü ərzində **424266,6** min ABŞ dolları dəyərində mal ixrac olunmuşdur ki, bunun **322485,3** min ABŞ dollarını, yəni ümumi ixracın 74%-ni sənaye məhsulları, **101781,3** min ABŞ dollarını, yəni ümumi ixracın 26%-ni isə kənd təsərrüfatı məhsulları təşkil etmişdir. Qeyd edək ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsullarının ixracı **0,2** %,kənd təsərrüfatı məhsullarının ixracı isə **0,3** % artmışdır.

İxrac əməliyyatlarında əsas yeri tutan əmtəələrin dəyəri aşağıdakı diaqramda öz əksini tapmışdır:




İdxalın strukturunda əsas yeri tutan əmtəələrin dəyəri aşağıdakı kimidir:

| | **Dəyər (min ABŞ dolları)** |
|---|---|
| 1. Nəqliyyat vasitələri və onların hissələri- | 25013,1 |
| 2. Digərləri- | 17188,5 |
| 3. Sənaye məhsulları - | 10008,1 |
| 4. Tikinti materialları - | 5450,8 |
| 5. Ərzaq məhsulları- | 1504,5 |

İdxal əməliyyatlarında əsas yeri tutan əmtəələrin dəyəri aşağıdakı diaqramda öz əksini tapmışdır:




İdxal əməliyyatlarının ölkələr üzrə bölgüsü aşağıdakı diaqramda öz əksini tapmışdır:



Qeyd etmək lazımdır ki, hesabat dövründə idxal əməliyyatlarında özəl sektorunun payı 40013,7 min ABŞ dolları,yəni ümumi idxalın 68%-ni, dövlət sektorunun payı 18009,1 min ABŞ dolları, yəni ümumi idxalın 30%-ni,fiziki şəxslər isə 1142,2 min ABŞ dolları, yəni ümumi idxalın 2%-ni təşkil etmişdir.

İdxal əməliyyatlarının sektorlar üzrə bölgüsü aşağıdakı diaqramda öz əksini tapmışdır:

